*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 187-194* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.187*

# Məmməd Səid Ordubadinin poeziya sahəsindəki ilk qələm təcrübələri

**Səbinə İbrahimli**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, doktorant
E-mail: sabinaibrahimli001@gmail.com

**Annotasiya.** Məmməd Səid Ordubadi dolğun bir yaradıcılıq yolu keçmişdir. O, yaradıcılıq axtarışları, məfkurə yüksəlişi ilə də diqqəti cəlb edir. Onun yaradıcılığı çoxşaxəlidir və bunu bir neçə hissəyə ayırmaq olar. M.S.Ordubadinin bəzi əsərlərində şairin narahatlığı, cəmiyyətin ehtiyacları, nöqsanları, yoxsul əhalinin acınacaqlı vəziyyəti öz əksini tapıb. Şair satirik ifadələrlə, əslində bəşəriyyətin yoxsul təbəqəsini peşəkarcasına xarakterizə etmişdir. Məmməd Səid Ordubadinin ədəbi irsi ictimai əhəmiyyəti və bədii dəyəri ilə çox qiymətlidir. Yaradıcılığı boyu klassik ənənələrə söykənən sənətkar klassiklərimizin əsrlər boyu damla-damla yaratdığı tükənməz xəzinənin qədrini bilmiş və sələflərindən axıb gələn şeir qaydalarına heç vaxt xəyanət etməmişdir. Şairin ədəbi irsini nəzərdən keçirərkən onun klassiklərimizin əsərlərini mütaliə etdiyinin nişanələrini görmək olar
Məmməd Səid Ordubadi totalitar rejimin qandalları altında belə sələflərinin mirasını qiymətli naxışlarla bəzəmiş, əsərlərinin ümumi məndəricəsini dini, milli və mənəvi dəyərlər üzərində kökləmişdir.
**Açar sözlər:** Məmməd Səid Ordubadi, ədəbiyyat, şeir, vətən, hürriyyət, poeziya

**Məqalə tarixçəsi:** göndərilib – 14.03.2025; qəbul edilib – 01.04.2025

# Mammad Said Ordubadi’s first pen experiments in the field of poetry

**Sabina Ibrahimli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS, Doctoral student
E-mail: sabinaibrahimli001@gmail.com

**Abstract.** M.S.Ordubadi lived a full creative life. He also attracts attention with his creative pursuits, the rise of ideology, and discoveries. His creativity as a poet is also multifaceted and can be divided into several parts. Some of the poet's works is dealt with the poet's concerns, the needs and shortcomings of society, and the situation of the poor population. The poet by satirical expressions professionally characterized how miserable the poor class of mankind, or rather the moneyless man, was. The literary heritage of M.S.Ordubadi is very valuable in terms of its social importance and artistic value. The master referred to classical traditions in his creativity and appreciated the inexhaustible treasury that our classics created over the centuries and never betrayed the poetic rules of his predecessors. We see that he perused the works of our classics, when considering the literary legacy of the poet.
**Keywords:** Mammad Said Ordubadi, literature, poem, homeland, freedom, poetry

**Article history:** received – 14.03.2025; accepted − 01.04.2025

## Giriş / *Introduction*

Çoxəsrlik bir tarixə malik olan Azərbaycan ədəbiyyatı oxşarı olmayan bir ümmana bənzəyir. Azərbaycan torpağı xalqımıza sayı-hesabı bilinməyən simalar bəxş etmişdir. Əfsuslar olsun ki, onların böyük bir qisminin külliyyatı sovetlər dönəmində alovu ərşə dirənən tonqallara atılıb yandırılmışdır. Lakin bununla belə, Azərbaycanın bərəkətli torpağı Azərbaycan xalqına hər birinin dəyəri, qiyməti heç bir ölçüyəsığmaz dühalar bəxş etmişdir. Azərbaycanın bərəkətli torpağından, sevimli şairimiz Abbas Səhhətin təbirincə desək, "nəşvü-nüma alan dühalarımız" qiymətli əsərlərini gələcək nəsillər üçün miras qoymuş və bu da onların mənəvi dünyasının zənginləşməsinə, insani keyfiyyətlərinin işıqlanmasına səbəb olmuş və olmaqdadır.

Lakin onların bədii irsinin təkrar-təkrar araşdırılmasına ehtiyac duyulmaqdadır. Çünki bu klassiklərin yaradıcılığı sovetlər dönəmi zamanı yarımçıq araşdırılmış, onların kommunist partiyasının, sovet hökumətinin əleyhinə ola biləcək əsərlərinin böyük qismi vətənpərvər insanlar tərəfindən gizli arxivlərdə gizlədilmişdir.

## Əsas hissə / *Main part*

Məmməd Səid Ordubadi sovetlər dönəmində sırf bolşevik ruhlu, milli-mənəvi dəyərlərin üstündən xətt çəkən, düşmənlərimizi dost, dostlarımızı bizə düşmən kimi göstərən bir sənətkar kimi təqdim edilmişdir. Lakin istedadlı, həqiqi vətənsevən ziyalıların araşdırmalarından məlum olur ki, Məmməd Səid Ordubadinin bolşevizmi deyil, sırf vətənpərvərliyi tərənnüm edən əsərləri mövcuddur və bu əsərlər də ədibin iç dünyasının, mənəviyyatının nə qədər vətəninə, torpağına bağlı olduğunu açıq-aşkar bəyan edir. Bütün bunlardan əlavə məlum olur ki, Məmməd Səid Ordubadi bir sıra bədii əsərlərini totalitar rejimin kəskin qılıncı altında qələmə almış və ən azı, Sibirə sürgün olunmaq təhlükəsini təkcə özündən deyil, ailəsindən, yaxınlarından, doğmalarından, əzizlərindən uzaqlaşdırmaq üçün qəlbinin tələbi ilə deyil, tamam başqa şəkildə meydana gətirmişdir.

Lakin bununla belə, ədib fitri istedadının, peşəkarlığının işığında nə qədər təzyiq altında yazıb-yaratsa da, bir maarifpərvər sənətkar kimi çıxış etmiş, yeri gəldikcə sadəcə, başa düşənlər üçün sözaltı mənalarla, bədii priyomlarla öz ideyalarını oxucularına çatdırmağa müvəffəq olmuşdur. Bu səbəbdən də sənətkarın bədii irsini öyrənmək həm indiki nəsil, həm də gələcək nəsillər üçün çox faydalıdır. Bu həm də ona görədir ki, M.S.Ordubadi Azərbaycanda roman janrının yaradıcısıdır, roman janrının qanunlarına, bəlkə də, onun qədər kimsə riayət etməmişdir, ikincisi ona görə vacibdir ki, o, mətbu orqanlarda dərc edilən məqalələrdə, şeirlərdə, felyetonlarda daim zülmə, ədalətsizliyə, haqsızlığa, zorakılığa, istismara, saxtakarlığa qarşı çıxmış, antipodları, mənfi ünsürləri ya ciddi şəkildə, ya da satira yolu ilə tənqid atəşinə tutmuşdur. Bundan əlavə, bənzərsiz bir satirik jurnal yaradan Cəlil Məmmədquluzadə ilə əqidə və məsləkcə bir olmuş, əvvəllər başqa mətbu orqanlarda çıxış eləsə də, sonralar "Molla Nəsrəddin"in əməkdaşına çevrilərək onunla çiyin-çiyinə xalqın sıxıntılarını, bir sıra meşşanların zülmünü və saxtakarlığını satira yolu ilə açıb göstərmişdir.

**Poeziya sahəsindəki ilk qələm təcrübələri.** Ədəbiyyatşünas, maarif xadimi, "İstiqlal" ordenli, Azərbaycanın Əməkdar müəllimi Lətif Talıb oğlu Hüseynzadə (1903-2008) "Görüşlərim" əsərində yazır: "Ədiblə görüşdük. O, rəngarəng kaşilərlə bəzədilmiş, Şərq – Azərbaycan memarlığı üslubunda tikilmiş bir qədim abidənin qapısı qarşısında dayandı. Dedi: "Baxın memarlarımız nələr yaratmışdır. Bura atamın dərs dediyi və mənim ilk təhsil və tərbiyə aldığım mədrəsədir". Mədrəsənin həyatinə daxil olduq. Məmməd Səid Ordubadi xarabəliyə çevrilmiş o gözəl mədrəsənin hücrələrinə, həyətə, səkkizgüşəli hovuza dərin bir həsrətlə baxıb:

– Mənim də gəncliyim burada mədfundur sanki, – və bir az sonra, – bilsəydim ömrüm belə tez gəlib keçəcək, mən onu qənaətlə sərf edərdim, – dedi. Yuxarıdan hücrələri birləşdirən tacın üzərindəki yazını göstərib: "Hübbül – vətən minəliman!" sözlərini oxudu və tərcümə elədi ki, yəni iman Vətəni sevmək deməkdir. "Əsl iman Vətən sevgisidir" sözlərini də əlavə etdi. Yenə bir az

fikrə gedib ağır-ağır dilləndi: Atamdan sonra burada Sidqi bir müddət bizə dərs dedi. Çox mütərəqqi fikirli adam idi. Gözəl də müəllim idi. Günorta azanı verilən vaxt hamı Came məscidinə gedib camaat namazına durmalı idi, bəzən bizi də aparırdılar. Lakin Məhəmməd Tağı Sidqi Ordubad qazisindən icazə almışdı ki, biz namazımızı elə mədrəsənin həyətində qılaq. Bu razılıqdan sonra Sidqi həmişə azan vaxtı bizi həyətə çağırıb düzərdi və hamımız birdən "Hübbül-vətən, minəliman" sözlərini bir neçə dəfə ucadan təkrar edərik. Hətta bizim bu "namazımız" pəncərələri mədrəsənin həyətinə baxan Ərbabın (Ordubadda ipək zavodu sahibi Rzayevə belə deyərdilər) zavodundakı fəhlələrə də sirayət etmişdi. Fəhlələr də nahar vaxtı bir neçə dəfə "Hübbül-vətən minəliman", – deyib səsimizə səs verərdilər. Bu sözlər bizə o qədər təsir etmişdi ki, "Hübbül-vətən" qafiyəli, rədifli şeirlər yazmaq üçün mədrəsədə müsabiqə keçirirdik…

Bəli, bizim bu "Hübbül-vətən" səsimiz Ordubad ruhanilərini həyəcana gətirdiyi kimi, Ərbabı da qorxuya salmışdı. Sidqi ruhanilərin gözündən düşmüşdü. Sidqinin Naxçıvana köçməsinin səbəblərindən biri də bu oldu. Bu zaman Ərbab məni və bir neçə fəhləni də işdən qovdu". Məmməd Səid Ordubadi müəllimi Sidqinin məktəbli şagirdlər üçün şərqi də yazdığını bildirmiş və şərqinin bir misrasını aşağıdakı kimi xatırlayır:

*Əcəb xoşbəxt odur hər kəs, tuta məva bu məktəbdə,*
*Bir az vaxtda kamallana, olur dara bu məktəbdə.* [3]

Məmməd Səid Ordubadinin bu xatirəsi onun sovetlər dönəmində uydurulmuş "allahsız", "dinsiz", "ateist" obrazının üstündən xətt çəkir. Təbii ki, totalitar rejimin dəhşət və vəhşət püskürən zəhərli ideologiyasının insanlıq qanunlarının tamamilə əleyhinə olan proqramının vahiməsi altında hər kəs inamını, inancını, etiqadını gizlətməyə məcbur idi ki, M.S.Ordubadi də ideologiyanın tətbiq etdiyi zorakılıq üzərində qurulmuş qanunlarına tabe olmağa məcbur olmuşdu.

*Əzizim, hicri-qəmin aşiqə müsibət olur,*
*O sərv qamətini görməsəm qiyamət olur.*
*Səfayi-gülşənə çıxma, xəzanə görsənmə,*
*O gül camalı qızıl gül görüb xəcalət olur.*

*Gəl, qardaş, ataq qəfləti bilmərrə kənarə,*
*Bir az da qəflət qala, olmaz dəxi çarə...*
*Hər bir işimiz getdi, qalıb qəlbdə həsrət,*
*Avarə qoyan bizləri qəflətdi, bu qəflət.* [6, s.206]

Məmməd Səid Ordubadi bizim ədəbiyyatımızın, mətbuatımızın, incəsənətimizin, ümumiyyətlə, mənəvi mədəniyyətimizin inkişafında xüsusi mövqeyi olan yazıçılarımızdan biridir. M.S.Ordubadi bir şair, dramaturq, jurnalist, memuarist, siyasi publisist, musiqi mətnlərin müəllifi, tərcüməçi, xüsusən qüdrətli nasir-romançı kimi, həm də bir alim, şərqşünas və azərbaycanşünas kimi çox zəngin bir irs qoyub getmişdir [1].

Məmməd Səid işlədiyi zavoddan iki "günahına" görə kənarlaşdırılmışdır; birincisi, yuxarıda qeyd olunduğu kimi, öz müəllimi və məktəb yoldaşları ilə tez-tez "Hübbül-vətən minəliman" dediyinə, ikincisi isə əziz müəllimi Məhəmməd Tağı Sidqinin ölümü ilə əlaqədar ürəkağrısı ilə şeir yazaraq "Şərqi-Rus" qəzetinə göndərməsi və həmin şeirin qəzetin baş redaktoru Məhəmməd Şahtaxtlı tərəfindən dərc edilməsi:

*Əcəb vəqt imiş dünyada Sidqi ilə keçən günlər,*
*Necə Sidqi sədaqət kanidir, dəryayi-hikmətdir.* [9]

Rzayevin zavodundan kənarlaşdırılandan sonra Məmməd Səid Fərəcovların, Hacı Kərimin, Hacı İsmayılın ipək fabriklərində çalışmağa başlayır. "Şərqi-Rus"da nəşr ediləndən sonra

yaradıcılığa, şeir yazmağa həvəsi daha da qüvvətlənən Məmməd Səid "Qəflət" adlı bir risalə meydana gətirir və əsərini Tiflisdəki "Qeyrət" mətbəəsinə çap edilməyə göndərir.

"Qeyrət" mətbəəsi Mirzə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə (1872-1937) tərəfindən açılmışdı. Onlar naxçıvanlı tacir Məşədi Ələsgər Bağırovun maddi yardımı ilə "Şərqi-Rus"u və onun mətbəəsini Məhəmməd Şahtaxtinksidən almışdılar. Bu da mütəfəkkirlərə, eyni zamanda "Molla Nəsrəddin" satirik orqanını açmağa təkan verdi.

Mətbəə 1905-ci ildən fəaliyyətə başlamışdı, M.S.Ordubadinin "Qəflət" əsəri isə həmin mətbəədə 1906-cı ilin yanvar ayında çap olundu. Ədib qəflətdə yatan insanları qəflətdən oyanmağa, elmi cəhətdən maariflənməyə, hürr, yəni azad yaşamağa, əsarətdən xilas olmağa səsləyirdi:

*Gözün var isə, hürriyyət ziyasından götür hissə,*
*Yaşa insanca, insanlartək azad ol əsarətdən!*
*Təlaş əyyamı, hürriyyət zamanı, iş məqamıdır,*
*Mənə söylə, görüm, kim müstərim olmuş səfalətdən?*
*Nə yatdım, ey müsafir? Sübh açıldı, karvan köçdü,*
*Özüntək pürxətər mənzil, səmər yoxdur bu rahətdən.*
*Yetib bielmilikdən min müsibət sinfi-İslamə,*
*Təfavüt eyləməz şahi, gədadan, ya rəiyyətdən...*
*Könül, dərk eylə elm, elmlədir asayişi-kunin,*
*Əgər elm olmasa, çıxmaz səadət bu həqarətdən.* [4, s.5]

Məmməd Səid Ordubadinin bu nümunəsi Azərbaycanda Hüseyn Cavidlə birlikdə "romantizm cərəyanı"nın banisi Məhəmməd Hadinin məna gözəllikləri, poetik sözün ecazkar qüdrətilə qələmə aldığı "Hüriyyət nəğməsi" şeiri ilə çox səsləşir:

*Göründü mətləl-ümmidimizdən bari-hürriyyət,*
*Təbəssümrizi – istiğnaydır rüxsari-hürriyyət.*
*Əsarət zülməti məstur edirkən vəcni-afaqi,*
*Üfüdən doğdu nagəh şəmsi-pərtövbari-hürrəyyət.*
*Niqabi sal üzündən, ərzi-ruyi-ibtisam eylə,*
*Görənlər söyləsinlər dilbəri –səhhari-hürriyyət!*
*Nə gülsən növnihalı, hansı cənnət hurizadisən,*
*Görənlər hüsnünə məftundur, ey dildari hürriyyət.* [5, s.151]

Məlumdur ki, Azərbaycan ərazisində pul qazanmaqdan ötrü bir çox hallarda mollaxanalarda müqəddəs "Quran"ı höccələyə-höccələyə oxuyan, mənasını qətiyyən dərk etməyən mollalar dərs keçib və şagirdləri savadlandırmaq əvəzinə, savaddan məhrum edirdilər. M.S.Ordubadi ürəkağrısı ilə yazırdı ki, hətta təharətdən (daim özünü təmiz saxlamağın qaydalarından) xəbəri olmayan mollalar, bu bəs deyilmiş kimi müqəddəs "Quran"ı xar edərək onu gözdən salır, İslam düşmənlərinin əlinə "Quran" haqqında ağıllarına gələni danışmağa bir növ fürsət verirdilər:

*Amandır, ey müəllim, rəhm qıl, "Quran"ı xar etmə!*
*Nə bilsin kudəki şeş salə təlimi-qiraətdən.*
*Əzəl şəri məsail öyrədib, ondan sora "Quran",*
*Necə "Quran" verərsən bir kəsə, bilməz təharətdən.* [8, s.313]

Məmməd Səid Ordubadi mücərrəd estetik qəlib və ölçülərdə deyil, vətəndaş çılğınlığı, publisist deyimi ilə, aktuallıq anlayışı ilə şeirlər yazırdı.

Mənəvi cəhətdən başdan-başa vətənpərvərlik ruhu ilə köklənmiş M.S.Ordubadi həm də din pərdəsi altında xalqın beynini xürafatla, mövhumatla, fanatizmlə zəhərləyən münafiq ruhaniləri

güclü tənqid atəşinə tutur, eyni zamanda dini cəhətdən çox az maariflənmiş xalqa İslam dininin özəlliklərini, gözəlliklərini, fəzilətlərini aşılamaq üçün də fəaliyyət göstərirdi.

"Qəflət" risaləsində Məmməd Səid Ordubadi xalqı hürriyyətə, azadlığa, firavanlığa, gözüaçıqlığa deyil, uçuruma, nadanlığa sürükləyən və onun bədbəxtliyinə səbəb olan ictimai amilləri haqlı olaraq açıb göstərir. Çünki istər bir xalqın, istərsə də bir şəxsin qəflətdə yatması, yəni elmi cəhətdən maariflənməməsi, ətrafında baş verən hadisələrə düzgün qiymət verməməsi, eyni zamanda biganəliyi, laqeydliyi həmişə başa bəlalar gətirmiş, nəticədə qudurğan, azğın, meşşan, cəllad ruhlu insanlar tərəfindən istismar olunmuş, döyülmüş, söyülmüş, işgəncələrə, zülmlərə, zorakılıqlara məruz qalmış, nəticədə ölmüş, yoxa çıxmış, tifaqı dağılmışdır.

M.S.Ordubadinin "Qəflət" əsəri üç mənzumədən ibarətdir. Hər üçü gerilikdən və pərişanlıqdan şikayət ruhunda qələmə alınmışdır. "İfadeyi-məram" adlanan birinci müsəddəsində vətəndaşlarını "Vətənin azadlığı uğrunda bir-birinə arxa-dayaq olub yeri gələrsə, canından keçməyə", "hürriyyət" uğrunda mübarizə aparmağa çağırır. İkinci müsəddəs xütbə xarakteri daşıyır, şair sanki vətəndaşları yağı düşmənlə mübarizə aparmaqdan ötrü cihada çağırır Vətənin hər daşı, hər guşəsi uğrunda belə savaşmağı tövsiyə edir:

*Baş ver Vətən uğrunda ki, əbnayi-vətənsən,*
*Baş verməsən, insan, nə ki, bir zağu-zəfənsən.*
*Ey ol kişi, sən ki Vətən alamı çəkənsən,*
*Əhsən sənə, sən millətə nəzhətli çəmənsən!* [4, s.11]

Sovetlər dönəmində rəmzlərdən istifadə edən klassik şairləri epiqonçu adlandırırdılar. Əslində isə bu rəmzlərin hərəsinin dərin mənaları, anlamları var idi. M.S.Ordubadi Vətəninin hürriyyətə qovuşmasını klassiklərimizdən miras qalan bədii ifadə vasitələri ilə göz önünə gətirir:

*Açıb nərgiz ol məstü-şəhla gözün,*
*Qızılgül həyadan qızardır üzün.*
*Göz aç, sən də alqışla bu işrəti,*
*Verər bülbül, elani-hürriyəti!*
*Alar qumri məşrutə təlimini,*
*Bənövşə verər dərsi-təzimini.*
*Girər bağa tuti quşu bavüqar,*
*Oxur nitqlər, parlamanı açar.* [6, s.208]

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli M.S.Ordubadinin 140 illik yubileyi ərəfəsində olduqca xeyirxah bir işə imza ataraq onun indiyədək çap olunmamış "İki çocuğun Avropaya səyahəti" adlı romanını, "Qəflət" (1906) və "Vətən və hürriyyət" (1907) şeir kitablarını, qiymətli xatirələrini, "Qanlı sənələr" publisist əsərini toplayıb, tərtib edib, çapa hazırlamış, ədibin yaradıcılığını, həyatını və şəxsiyyətini xarakterizə edən ön söz yazaraq, "Həyatım və mühitim" adı altında nəşr etdirmişdir.

O, "Həyatım və mühitim"in müqəddiməsində yazır "Qəflət" kitabı 32 səhifədən ibarət olub, "Bismillah Taala" müqəddiməsindən başqa "Xabi-qəflət" adlı 362 misralıq mənzum bir əsər əsasında hazırlanmışdır: "Bismillah Taala" müqəddiməsi orta əsr klassik Şərq və Azərbaycan poeması ənənəsindən gəlmə bir meylin ifadəsi kimi daha çox poemaların başlanğıcındakı "əsərin yazılma səbəbi" bölməsinin funksiyasını daşıyır. Bu, "Xabi-qəflət" əsərinin yığcam və mənalı bir müqəddiməsidir. "Xabi-qəflət" əsəri isə heç də indiyə qədər yazıldığı kimi şeir yox, XX əsrin əvvəllərində ön mövqeyə çıxan ictimai-fəlsəfi poemadır" [8].

Bundan belə qənaətə gəlmək olar ki, M.S.Ordubadi klassik şairlərimizin ənənəsinə sadiq qalaraq kiçik bir "Divan" bağlamışdır. Çünki məhz "Divanlar" "Bismillah Taala", "Tövhid", "Minacat", "Nət", "Meraciyyə" və "Saqinamə" ilə başlayır. Bu da öz növbəsində Məmməd Səid

Ordubadinin hələ gənc yaşlarından klassik Şərq şeirinin bütün qanunlarını çox gözəl bilən bir şair kimi yetişdiyindən xəbər verir.

Akademik İsa Həbibbəyli M.S.Ordubadinin "Vətən və hürriyyət" əsərinin hansı əhəmiyyət daşıdığını, qəhrəmanlar qəhrəmanı, Gəncə xanı Cavad xanın igid, mərd və işıqlı obrazını, onun xanımı Bəyimxanımın əməlisalehliyini, nümunə ola biləcək özəlliklərini, gözəlliklərini, qətiyyətini, ismətini və ümumiyyətlə, çar Rusiyasının Azərbaycanı işğal etməsinin ab-havasını, hətta azyaşlı uşağın belə dərhal anlayacağı sadə, yığcam və aydın şəkildə əks etdirir.

"Vətən və hürriyyət" kitabında Azərbaycanın istiqlalı uğrunda qəhrəmancasına həlak olmuş Gəncə hakimi Cavad xan "hübbülvətənlik" nümunəsi kimi tərənnüm olunmuşdur. "İfadeyi-məram", "Qeyrəti-millət", "Vətənimizə bir neçə söz" şeirlərindəki vətənpərvərlik ruhu yüksək ideya-bədii keyfiyyətlərə malik olan and miqyasında marş kimi səslənir. Əslində "Vətən və hürriyyət" kitabındakı şeirlərdən hər biri müstəqil poetik nümunə kimi səslənsə də, bu şeirlər, eyni zamanda, biri digərini tamamlayan ictimai-fəlsəfi poemanın tərkib hissələridir. Müşahidələr göstərir ki, "Vətən və hürriyyət" sadəcə kitabın deyil, bu kitabda toplanan şeirlərdən ibarət olan ictimai-fəlsəfi poemanın adıdır. Təqdim olunan kitabda "Vətən və hürriyyət" adlı xüsusi bir şeir yoxdur, lakin bütövlükdə Vətən və hürriyyət anlayışının yüksək poetik ifadəsi topludakı şeirlərin hamısını birləşdirir. Məmməd Səid Ordubadi "Vətən və hürriyyət" poemasında Vətən uğrunda mübarizənin baş planını, əsas proqramını yarada bilmişdir. Bütövlükdə, "Vətən və hürriyyət" kitabı XX əsrin əvvəlləri Azərbaycan şeirində milli istiqlal düşüncəsinin manifesti təəssüratı yaradır:

*Baş götürmək ta ki, insanlar tək olsun sayəmiz,*
*Qırmızı qan olsun hürriyyət üçün pirayəmiz.*
*Ölməyi lay-lay desin gəhvarə içrə dayəmiz!*
*Gör nə icraatlar etməkdədir həmsayəmiz.*
*Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,*
*Bizdən əksəndaz olan əflakə boş fəryadmış*! [2]

Onu da qeyd edək ki, Akademik İsa Həbbibbəylinin toplayıb ərsəyə gətirdiyi bu ədəbi səlmanə həm də M.S.Ordubadinin mənəvi dünyasının əks-sədası kimi səslənir:

*Bizim cümləmiz bir müsəlman idik,*
*Bir ayində, bir əhli-Quran idik.*
*Bir əl kimi bir təndə beş qardaşıq,*
*Bir ümmət, bir İslam, bir yoldaşıq.*
*Birik cümlə, gər varsa nöqsanımız,*
*Neçün ki birik, birdi "Quran"ımız.*
*...Gər olsa müsəlmanımızda tifaq,*
*Atanmazlar İslama səngi-şəqaq?* [8]

M.S.Ordubadi Cavad xanın zövcəsi Bəyimxanımın timsalında Azərbaycan qadınının ləyaqətinin, həyat yoldaşına və xalqına olan sədaqətinin, işıqlı imanının, əzmkarlığının, düşmən qarşısında əyilməzliyinin bitkin və yetkin portretini yaratmışdır. Akademik İsa Həbibbəyli əsərin Ön sözündə Bəyimxanımın nitqini Azərbaycan qadınının dövlətçilik ruhunun və böyük sədaqətinin əhdnaməsi olduğunu qeyd edir. Akademikin tərtibatı ilə çapa hazırlanan bu kitab aşağıdakı sonluqla bitir:

"...Bəli! Niyyəti-hürriyyətsiriştin səni bir məqami-müqəddəsə isal etdirdi.

Ey zair! Dünyayi-fanini ziyarət etməkdən mənzurun beş günlük bir fanilikdə üç günlük bir hürriyyət qazanmaq idi. Şimdisə hürriyyəti-əbədiyyətə vasil oldun.

Ey qəhrəman! Sən indi cənnətin qərin səfasındasan. Vətən uğrunda etdiyin fədakarlıqlar, qazandığın niknamlar hər tərəfdən gözəl mələklər surətində səni istiqbal edirlər.

...Get! Heç bir əsrdə məsləki-həqiqin olan hürriyyətin bu sədayi-dilnişini əfradi-millətin qulaqlarından çıxmayacaqdır” [8, s.333-334].

Bu əsər həm M.S.Ordubadinin parlaq şəxsiyyətinin güzgüsü, həm də vətənpərvərlik, torpağa, Vətənə bağlılıq nümunəsi kimi gələcək nəsillər üçün misilsiz bir ərməğandır.

M.S.Ordubadinin poetik dünyası da çoxşaxəlidir və belə ki, o, ümumtürk dünyasının poeziya günəşi Mövlanə Füzuliyə nəzirələr yazırdı. Lakin bu nəzirələr əslində satirik mahiyyət daşıyır, imkansızların hesabına qarnını və cibini dolduran fırıldaqçı din xadimlərini güclü tənqid atəşinə tutur:

*Bişeyi-mülki cəhalətdə qapandır bədənim,*
*Yemişəm aləmi ondadı şişmiş gödənim.* [7, s.7]

**Nəticə / *Conclusion***

M.S.Ordubadinin yaradıcılığı bədii publisistikanın ən gözəl nümunələrindən biri sayılır. Ədibin poeziyası əslində Azərbaycan ədəbiyyatındakı bütün mümkün poetik transformasiyaları bir araya gətirir. Fəlsəfi görüşlər, vətən eşqinin ədəbiyyatdakı statusunun müəyyənləşməsi, ictimai məzmun, eyni zamanda satira, həcv, nifrin və şeirin başqa forma, şəkilləri onun ədəbi yaradıcılığının spesifikasını əhatə edir. Ən əhəmiyyətlisi isə xalqın milli özünüdərkində müstəsna rol oynayır. Ədib şeirlərində klassik ənənəni saxlamaqla bərabər, həm də bir yenilikçi kimi çıxış edirdi.

**Ədəbiyyat / *References***


1. Cəfərov M.C. https://ryl.az/melumat-bazalari/Memmed_Seid_Ordubadi_el_melumat bazasi/pdf/haqqinda_deyilenler
2. https://az.wikisource.org/wiki/Vətən_və_hürriyyət_şeirləri
3. https://sabaha-inamla.az/edebiyyat/18914-vtn-sevg-vtn-baliliq-mollansrddnc-mmmd-sd-ordubad-yaradiciliinda-kamal-camalov-.html
4. Məhəmməd Hadi. Seçilmiş əsərləri. 2 cilddə, I cild. – Bakı: Elm, 1978.
5. Mir Cəlal Hüseynov, F. XX əsr Azərbaycan Ədəbiyyatı. – Bakı: Maarif, 1982.
6. Ordubadi M.S. “Birinci min günümüz”. – Bakı: Elm və Təhsil, 2013, 362 s.
7. Ordubadi M.S. Əsərləri. 8 cilddə, I cild. – Bakı: Azərnəşr, 1964.
8. Ordubadi M.S. Həyatım və mühitim. – Naxçıvan: Əcəmi NPB, 2012, 336 s.
9. “Şərqi-Rus”. 1904-cü il, № 1.


## Первые пробы пера Мамед Саида Ордубади в поэзии


**Сабина Ибрагимли**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА, докторант
E-mail: sabinaibrahimli001@gmail.com



**Резюме.** Мамед Саид Ордубади прожил насыщенную творческую жизнь. Он привлекает внимание не только своими художественными поисками, но и возвышенностью идейных устремлений. Поэтическое наследие Ордубади отличается многогранностью и может быть условно разделено на два основных этапа. В некоторых произведениях поэта находит выражение беспокойство поэта, нужды и недостатки общества, горестное положение бедноты. Используя сатирическую форму, он мастерски обнажает трагизм жизни бедняка, придавая социальному протесту художественную

выразительность. Литературное наследие Мамеда Саида Ордубади представляет значительную общественную и художественную ценность. На протяжении всей своей творческой деятельности он оставался верен классическим литературным традициям, высоко ценя богатейшее наследие, созданное мастерами прошлого. Его произведения свидетельствуют о глубоком знании классики, что находит отражение как в тематике, так и в поэтической форме. Изучение литературного наследия поэта указывает на его постоянное обращение к произведениям классиков нашей литературы.
Даже находясь под гнётом тоталитарного режима, Мамед Саид Ордубади сумел украсить наследие своих предшественников новыми художественными элементами, при этом органично вплетая в свои произведения мотивы религиозных, национальных и духовных ценностей.
**Ключевые слова:** Мамед Саид Ордубади, литература, стих, родина, республика, поэзия